

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 55 (21.207)

18 mart 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Türkiyə Respublikasının Qars şəhərinə işgüzar səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Qarsda Heydər Əliyev adına Parkda ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

* * *

Martın 17-də Qarsda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.

Görüşdə strateji tərəfdaşlıq, dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Türkiyədə təməli qoyulan TANAP layihəsinin əhəmiyyəti vurğulandı, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli görüşlərin rolu qeyd edildi. Azərbaycanın və Türkiyənin iştirak etdikləri mühüm strateji layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verdiyi bildirildi.

* * *

Martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili mərasimdə iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin Qars şəhərinə işgüzar səfəri martın 17-də başa çatıb.



## Müşavirədən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görüləcək işlər müzakirə olunub



*Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı Naxçıvan Dövlət Universitetində tədbir keçirilib.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək müşavirədə müzakirə olunan məsələlərdən danışıb. Rektor Ali Məclis Sədrinin müşavirədə verdiyi tövsiyə və tapşırıqları, ali təhsilin inkişafı məqsədilə müəyyənləşdirdiyi prioritet istiqamətləri diqqətə çatdırıb.

Universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid 14 mart 2015-ci il tarixdə keçirilən müşavirə ilə bağlı ətraflı məruzə edərək bildirib ki, Ali Məclis Sədri müşavirədəki çıxışında müasir dövrün məktəbi dedikdə burada yalnız tikilən və yeni yaradılan binalara deyil, eyni zamanda onun bütünlükdə məzmununa da diqqət yetirildiyini xüsusi vurğulayıb, tədris binasında yaradılan şəraitin səviyyəsinin təhsil alanın psixologiyasına və tədrisin səviyyəsinə təsir göstərdiyini qeyd edib. Vurğulanıb ki, Naxçıvan Dövlət Universitetində bakalavr, magistratura, rezidentura və doktorantura səviyyələri üzrə kadr hazırlığı uğurla həyata keçirilir. Universitetdə hazırda 237 nəfəri xarici ölkə vətəndaşı olmaqla, 5349 nəfər tələbə ali təhsil alır. Yeniləşmiş təhsil mühitində tədrisin təşkili formalarının tətbiqi məqsədilə universitetdə bolonya prosesinə keçidlə bağlı proqram təminatı, qiymətləndirmə, mobillik və sair məsələlər təcrübə mübadiləsi əsasında inkişaf etdirilir. 2014-cü ildə Naxçıvan Dövlət Universitetinin "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi üzrə müsabiqədə ölkə üzrə birinci yeri tutması muxtar respublikada ali təhsilin inkişafına göstərilən dövlət qayğısının əməli nəticəsidir. Universitetin beynəlxalq reytinq cədvəllərində yerinin müəyyənləşdirilməsi növbəti tədris ilində qarşıya qoyulan əsas hədəflərdəndir.

Ali məktəb kollektivi bundan sonrakı fəaliyyətini müşavirədə verilən tövsiyələr əsasında quracaq. Universitetin çoxsaylı professor-müəllim heyəti Ali Məclis Sədrinin informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, yüksək nizam-intizam yaradılması ilə bağlı tapşırıqlarını rəhbər tutacaq, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün əzmlə çalışacaq.

Tələbə Elmi Cəmiyyətinin sədri Ramazan Abdullayev çıxış edərək tələbələrin elm və təhsildə, ictimai işlərdə qazandığı uğurlardan, onlara göstərilən böyük diqqət və qayğıdan danışıb. Diqqətə çatdırılıb ki, ötən tədris ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə 400-dən çox tələbə elmi-tədqiqat işlərinə cəlb olunub, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə birgə "Naxçıvanı kəşf et", "I zəka oyunları" festivalı keçirilib. Ramazan Abdullayev tələbələr adından söz verib ki, daha yaxşı oxuyacaq, elm və təhsildə fərqlənəcək, dövlətçilik ideyalarını, milli dəyərləri sədaqətlə yaşadıb inkişaf etdirəcəklər.

**Mehriban SULTAN**

## Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində elektron xidmətlərin səviyyəsi yüksəldilir

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti daşınmaz əmlak idarəçiliyində göstərilən xidmətlərdə yüksək keyfiyyətin, şəffaflığın təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Xidmət daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciətlərə baxılması və qəbul edilməsi zamanı operativ, rahat və şəffaf qeydiyyat xidmətlərinin göstərilməsi işini diqqət mərkəzində saxlayır, vətəndaşlara müasir dövrün tələbləri çərçivəsində yüksək səviyyədə xidmət göstərməklə sosial məmnunluğu artırır.

Daşınmaz Əmlakın Dövlət Reyestri xidmətindən "Şərq qapısı"na bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xidmətin mərkəzi aparatı ilə şəhər və rayon şöbələri arasında elektron əlaqələrin yaradılması barədə tapşırığı əsasında həmin işlərin sürətlə həyata keçirilməsi üçün bir sıra təşkilati tədbirlər görülüb. Qısa müddətdə xidmətin hər bir şöbəsinə fiber-optik kabel çəkilib və yeni kompüter dəsti alınaraq xidmətlə onun şöbələri arasında qapalı xətt üzərindən onlayn əlaqə yaradılıb. Şəhər və rayon şöbələrində həmin kompüterlərə domen adları verilərək xidmətdə yerləşən serverə qoşulub.

İnformasiyanın təhlükəsizliyini təmin etmək məqsədilə xidmətdə, Rabitə və Yeni Texnologiyalar Nazirliyində təhlükəsizlik divarları (Firewall) quraşdırılıb.

2015-ci il yanvarın 30-da xidmətdə yeni yaradılan elektron əlaqələrin sınaq testləri aparılıb, xidmətlə şöbələr arasında məlumat mübadiləsində çevikliyin, dəqiqliyin təmin edilməsi imkanı yaradılmaqla elektron sənəd dövriyyəsi təşkil edilib. Xidmətin kollektivi bununla kifayətlənməyərək bu sahədə müasirləşdirmə işlərini davam etdirir.

## Əhalinin səmərəli məşğulluğu təmin edilir

Muxtar respublikada davamlı olaraq həyata keçirilən məşğulluq tədbirləri əhalinin səmərəli məşğulluğunun təmin olunmasına, insanların sosial rifahının daha da yaxşılaşmasına geniş imkanlar yaradır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr uğurla icra olunur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, cari ilin ilk iki ayı ərzində məşğulluq xidməti orqanlarına müraciət edən 362 nəfər peşə və ixtisasına uyğun münasib işlərlə təmin edilib, sosial müdafiəyə xüsusi ehtiyacı olan 6 nəfər isə kvota yerlərinə göndərilib. Qeyd olunan dövr ərzində işə düzələnlərin 130 nəfəri gənclər, 82 nəfəri isə qadınlar olub. İşlə təmin olunanların 17 nəfəri məhdud fiziki imkanlı şəxs, 7 nəfəri hərbi xidmətdən tərxis olunmuş vətəndaş, 4 nəfəri isə əcnəbi tələbədir. İşaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək üçün bu dövrdə "Əmək birjası" sektoru tərəfindən 26 nəfər müvəqqəti və mövsümi xarakterli işlərə göndərilib.

Əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili istiqamətində də tədbirlər həyata keçirilib. Qeyd olunan dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalq tətbiqi sənəti növləri üzrə, "elektrik montyoru", "kompüter istifadəçisi" və "xalçaçı" peşələri üzrə kurslar təşkil edilib və bu kurslara 63 nəfər, eyni zamanda sağlamlıq imkanları məhdud 41 nəfər cəlb olunub.

***2015-ci ilin ilk aylarında muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları tərəfindən iqtisadiyyatın kreditləşdirilməsi vəziyyəti diqqəti xüsusilə cəlb edir. Belə ki, cari ilin ilk iki ayı ərzində verilmiş kreditlərin həcmi 2014-cü il ərzində verilmiş kreditlərin 37 faizini təşkil edib.***

## Aqrar sahəyə və ipotekaya yönəldilən kreditlərin həcmi artıb

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən bildiriblər ki, yanvar-fevral aylarında bankların iqtisadiyyatı kreditləşdirməsi ötən illə müqayisədə 13 milyon 101 min manat çox olub və 19 milyon 957 min manata çatıb. Bu, eyni dövr ərzində muxtar respublikada istehsal olunmuş ümumi daxili məhsulun 2,5 faizini təşkil edir. Ümumiyyətlə, martın 1-nə muxtar respublikada cəmi kredit qoyuluşunun həcmi 113 milyon 573 min manat olub. Ötən ilin müvafiq dövründə isə bu göstərici 84 milyon 791 min manat təşkil edirdi.

İqtisadiyyatın real sektoruna kredit qoyuluşunun sahələrinə nəzər yetirdikdə cəlb olunan kreditlərin həcminə görə sənaye sahəsinin əhəmiyyətli dərəcədə fərqləndiyi müşahidə olunur. Belə ki, ötən ilin müvafiq dövründə real sektorun kreditləşməsində bu sahənin payı 2,6 faiz təşkil edirdisə, cari ilin yanvar-fevral aylarında bu sahəyə yönəldilən kreditlər 10 milyon 84 min manat artaraq 10 milyon 264 min manat olub və kreditləşmədəki pay 51,4 faizə yüksəlib. Tikinti sektorunda bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə azalma ilə müşahidə olunub və 150 min manat təşkil edib. Kommersiyayönümlü kreditlərin həcmi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 91 min manat artaraq 1 milyon 868 min manat olub. Nəqliyyat sektorunun inkişafı ilə əlaqədar verilmiş kreditlərin həcmi isə 270 min manat artaraq 285 min manata çatıb. Əhalinin mənzilə olan tələbatının ödənilməsi məqsədilə daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin payına düşən də ötən illə müqayisədə 1 milyon 221 min manat artaraq 2 milyon 554 min manata çatıb.

Verilmiş kreditlərin 2 milyon 214 min manatı isə digər kommunal, sosial, şəxsi xidmətlərin göstərilməsi və istehlak kreditlərinin payına düşür ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 251 min manat artım deməkdir.

Kreditləşmənin intensiv həyata keçirildiyi sahələrdən biri isə muxtar respublika iqtisadiyyatının əsası sayılan kənd təsərrüfatıdır. Kreditlərin yönləndirilməsi üçün riskli sahə olmasına baxmayaraq, kənd təsərrüfatının kreditləşdirilməsi cari ilin yanvar-fevral ayları ərzində 2 milyon 623 min manata çatıb. Bu göstəricinin artması təsadüfi deyil. Bu gün muxtar respublikamızda əhalini zəruri qida məhsulları və kənd təsərrüfatı malları ilə təmin etmək üçün güclü potensial mövcuddur. Həmin potensialın dəyərləndirilməsi üçün kənd təsərrüfatı ilə məşğul olan fermerlərin, bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların stimullaşdırılması vacib məsələdir. Bu baxımdan muxtar respublikada fəaliyyət göstərən bank və digər kredit təşkilatları tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə fermerlərə, sahibkarlara güzəştlə verilən aşağı faizli kreditlər böyük əhəmiyyətə malikdir.

Heyvandarlığın inkişafı məqsədilə yönləndirilmiş kreditlərin həcmi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 816 min manat artaraq 2 milyon 451 min manat təşkil edib. Arıçılığın inkişafı da diqqətdən kənarda qalmayıb və bu məqsədlə cəlb edilmiş kreditlərin həcmi 2014-cü ilin müvafiq dövründən çox olub.

2015-ci ildə real sektorun, xüsusilə kənd təsərrüfatının prioritet sahə kimi maliyyələşdirilməsi davam etdiriləcəkdir.

**Xəbərlər şöbəsi**

*Jurnalistin qeydləri*

# Axuraçayla görüş



*Şərur rayon mərkəzindən 24 kilometr aralı məsafədə yerləşir Axura kəndi. Bölgənin ucqar dağ kəndlərindən biridir. Dərələyəz silsiləsinin ətəklərinə sığınmış bu yaşayış məntəqəsinə gedərkən kənd və onun tarixi haqqında çox araşdırmalar aparılmasından, xeyli faktlar əldə edilməsindən bir qədər məlumatım var idi.*

Kəndin ərazisində aşkar edilən arxeoloji abidələr Axuranın qədim tarixə malik yaşayış yeri olduğundan soraq verir. Kəndin yetirməsi, tarix üzrə elmlər doktoru, professor Əziz Novruzlu "Şərurun arxeoloji abidələri" kitabında Axuranın maddi-mədəniyyət nümunələri barədə də ətraflı söhbət açır: "Zərdüştlüyün xeyir allahı Axuraməzdanın adı ilə adlandırılmış Axura kəndi eyniadlı çayın sağ və sol sahilində, dağlıq ərazidə yerləşir. Kəndin yerləşdiyi ərazi maldarlıq və heyvandarlıq, habelə əkinçilik üçün yararlıdır. Axura kəndi əkin və otlaq sahələri, içməli su mənbələri ilə zəngindir".

Əziz Novruzlu kitabında qeyd edir ki, Axuraçayın sağ və sol sahilləri boyunca 30-dan artıq yaşayış yeri, nekropol və ibadətgahlar qeydə alınmışdır. Bu abidələr içərisində istər nəhəngliyinə, istərsə də tarixi əhəmiyyətinə görə Albantəpə, Qoşatəpə və Kültəpə xüsusilə seçilir.

Qoşatəpədən 2 kilometr şərqdə, Axuraçayın sağ sahilindəki təpəliklər üzərində Antik dövrə aid Axura Kültəpəsi yerləşir. Yaşayış yerinin sahəsi 7-8 hektardır, burada aparılmış qazıntılardan divar qalığı aşkara çıxarılmışdır. Qazıntı sahəsindən 20-25 santimetr qalınlığında kül təbəqəsi, osteoloji və bitki qalıqları, gil qab parçaları və sair əldə olunmuşdur.

Birinci Axura nekropolu Dəmir dövrünün sonuna, ikinci Axura nekropolu isə Antik dövrə aid arxeoloji abidələrdir.

### Köklü təhsil ənənələri uğurla davam etdirilir

Ötən il oktyabrın 17-də Axura kəndində əsl bayram ovqatı yaşandı. Həmin gün burada bir neçə obyekt istifadəyə verildi. Onlardan biri də kənd tam orta məktəbinin binasıdır.

Qeyd edək ki, orijinal memarlıq üslubu ilə yenidən qurulan 3 mərtəbədən ibarət məktəb binası kəndin hər yerindən görünür. Axuraya xüsusi gözəllik bəxş edən məktəb binasında geniş foyelər, işıqlı sinif otaqları, zəngin fənn kabinələri var.

Məktəb binası 234 şagird yerlikdir. Sinif otaqları və ayrı-ayrı fənn kabinələri lazımi tədris avadanlıqları ilə təchiz olunmuşdur. Məktəbdə 20 kompüter dəsti quraşdırılmış, onların hər biri internetə qoşulmuşdur. Üç elektron lövhəli sinif, kimya-biologiya və fizika laboratoriyalarının hər biri müasir tədris vasitələri ilə təmin edilmiş, dərslərə uyğun təcrübi məşğələlərin keçilməsi üçün hər cür şərait yaradılmışdır.

Məktəbin direktoru Asəf Məmmədov deyir ki, yaradılan şərait kollektivin məsuliyyət hissini daha da artırmışdır. Bu səbəbdəndir ki, son illər qazanılan uğurlar da artmaqdadır. Ötən tədris ilində məktəbi bitirən 10 məzundan 6-sı tələbə adını qazanmış, onlardan 2-si 500-700 intervalında bal toplamışdır. Həmçinin şagirdlərimizdən 1-i IX sinif bazasından orta ixtisas məktəbinə, 1-i isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Qazanılan uğurların son hədd olmadığını deyən direktor gələcəkdə daha yüksək nəticələr əldə edilməsi üçün daim səylə çalışacaqlarını bildirir.



Məktəbin qocaman müəllimi Məhərrəm Mustafayevlə də görüşdük. O dedi ki, məktəbimizin köklü təhsil ənənələri var. Odur ki, axuralılar Azərbaycan elminə layiqli töhfələr vermiş tanınmış ziyalıları ilə fəxr edirlər. Məhərrəm müəllim onu da xüsusi vurğuladı ki, 40 ildən artıq bir dövr təhsil ocağında onun gözləri önündə keçmişdir. 1973-cü ildə Axura kənd məktəbi orta məktəbə çevrilmiş, ötən əsrin 80-ci illərinin sonuna qədər təhsil ocağı kəndin köhnə məscid binasında yerləşdirilmişdir. Sonralar burada yeni məktəb binası tikilmişdir. 2014-cü ildə məktəbimizin binası yenidən qurulmuşdur. Artıq uşaqlarımız yeni məktəbdə oxuyur, mükəmməl təhsil alırlar. Bir neçə ildən sonra kəndimizdən çıxan ziyalıların sayı daha da artacaq. Dövlətimiz təhsilə ona görə külli miqdarda vəsait sərf edir ki, gələcəyimizin təminatçısı olan gənclər yetişdirilsin.

### Quruculuq tədbirləri Axuranı müasir yaşayış məntəqəsinə çevirib

Kənddə aparılan digər quruculuq tədbirləri də axuralılar tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir. Kənddəki xidmət mərkəzində ərzaq və sənaye malları mağazaları, eləcə də ət satışı yeri fəaliyyət göstərir. Həmçinin mərkəzdə bərbərxana və qadın gözəllik salonu da sakinlərin xidmətindədir.

Axurada qayğıya ehtiyacı olan kənd sakini, ahıl vətəndaş Quba Abbasova üçün fərdi yaşayış evi istifadəyə verilmişdir. İki otaqdan və mətbəxdən ibarət olan mənzildə lazımi kommunal şərait yaradılmış, məişət avadanlıqları qoyulmuşdur. Evin həyəti də abadlaşdırılmış, bura içməli su xətti çəkilmişdir.

Axurada aparılan quruculuq işləri kəndi müasir yaşayış məntəqəsinə çevirmişdir. Kənd ziyalısı Məmmədəli Orucov deyir:

– Son illər muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərinin böyük bir hissəsinin ucqar dağ yaşayış məntəqələrinin payına düşdüyünü desəm, yanılmaram. Kompleks quruculuq işləri aparılan kəndlərin, ilk olaraq, yolları yenidən qurulur. Ötən il Axura kənd avtomobil yoluna yeni asfalt örtük salınmış, əsaslı təmir işləri aparılmışdır. Yolboyu 266 metr uzunluğunda beton kanal çəkilmiş, 2 körpü əsaslı, 1 körpü isə cari təmir olunmuş, 16 su keçidi tikilmişdir. Qaz və elektrik xətləri yeniləşdirilmiş, müasir rabitə sistemi qurulmuş, fiber-optik xətt çəkilmişdir.

Məmmədəli müəllim fikirlərini belə tamamladı:

– Axurada quruculuq tədbirlərinə 2008-ci ildən başlanılmışdır. Sakinlərin içməli və əkin sahələri üçün suvarma suyuna olan tələbatının tam ödənilməsi məqsədilə dörd subartezian quyusu qazılmış, ərazidə icra nümayəndəliyi, bələdiyyə, mədəniyyət müəssisələrinin, baytarlıq və polis sahə məntəqələrinin, eləcə də digər qurumların normal fəaliyyətini təmin etmək üçün ikimərtəbəli kənd mərkəzi, ikimərtəbəli həkim ambulatoriyası binaları tikilib istifadəyə verilmiş, "Yuxarı bulaq" deyilən yerdən kənddəki bütün həyətlərə içməli su xətti çəkilmişdir. Təbii ki, Axurada aparılan belə quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir.

### Dağ kəndinin təsərrüfat həyatı

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə müavini Əhməd İsgəndərov bildirdi ki, axuralılar təsərrüfatın bir neçə sahəsi ilə məşğul olurlar. Daha çox inkişaf etdirilən sahələr taxılçılıq, heyvandarlıq, arıçılıq və bağçılıqdır.

Kəndin təbii və iqlim şəraiti axuralıların bu sahədə yüksək nəticələr qazanmalarına əlverişli şərait yaratmışdır. Qoçaq və zəhmətkeş insanlar bu şəraitdən səmərəli istifadə edirlər. Kənd sakinləri dövlətimizin təsərrüfatın müxtəlif sahələrini inkişaf etdirmək, iqtisadiyyatı gücləndirmək üçün həyata keçirdiyi məqsədyönlü tədbirləri dəstəkləyir, daha böyük uğurlar qazanmağa səy göstərirlər.

Axurada gəlirli təsərrüfat sahələrindən birinə çevrilən meyvəçiliyin inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılır. Kənddə 16,5 hektar barverən meyvə bağı vardır. Ötən il 230 ton meyvə dərilmişdir. Meyvəçiliklə məşğul olan Nəriman Cəfərov, Ələsgər Mərdanov, Bayram Əliyev və başqaları becərdikləri bağlardan hər il bazara xeyli məhsul çıxarıb yaxşı qazanc əldə edirlər.

Axurada daha çox önəm verilən təsərrüfat sahəsi heyvandarlıq və arıçılıqdır. Heyvandarlığı və arıçılığı inkişaf etdirmək üçün dağlıq ərazidə geniş otlaq sahələri və güllü-çiçəkli çəmənliklər vardır. Hazırda kənddə 507 baş qaramal, 2907 baş davar və 712 arı ailəsi saxlanılır.

### Gözəlliklər məskəni

Axuranın başı üzərində sıralanan zirvəli dağlar, qayalar, lap yaxınlığından səs-küylə axan Axuraçay kəndə əsrarəngiz bir gözəllik verir. İnsanı ruhlandırır, onda yaşayıb-yaratmaq həvəsi yaradır. Axura kəndi dağlarının, dərələrinin landşaftının özünəməxsusluğu ilə digər yerlərdən fərqlənir. Axuranın dağları sayı-hesabı bilinməyən müalicəvi əhəmiyyətli bitkilərlə zəngindir. Axuralıların uzunömürlülüyünün səbəbi kəndin təmiz havası, suyu, müalicəvi bitkiləri, insanların bu nemətlərdən yetərincə istifadə edə bilmələridir. Bu gün kənddə yaşı 70-i ötən 40-dan yuxarı sakin yaşayır. Uzunömürlülərdən Zəhra İsmayılova, Musa Novruzov, İmmi Zamanova, Vəli Vəliyev və başqaları ömürlərinin ahıl çağlarını yaşayırlar. 91 yaşlı Zəhra nənə deyir ki, kəndimizi belə görəndə bir az da yaşamaq istəyirəm. Çünki uzaq dağların qoynunda gözəlləşən kəndimizdə yaşamalı dövrandır.

**Cəfər ƏLİYEV**

---

***Dövlətin apardığı məqsədyönlü iqtisadi siyasətin bir hissəsi olmaqla ticarətin, xüsusilə xarici ticarətin tənzimlənməsi, daxili bazarın qorunması, gömrük prosedurlarının sadələşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, bütövlükdə, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ticarət dövriyyəsinin artmasına, o cümlədən xarici ticarətin genişlənməsinə şərait yaradıb.***

# Muxtar respublikanın xarici ticarət dövriyyəsi ilbəil artır




Muxtar respublikada xarici ticarət dövriyyəsinin ilbəil artması burada yeni sənaye müəssisələrinin, istehsal sahələrinin yaradılması nəticəsində mümkün olmuşdur. Son 20 il ərzində muxtar respublikada sənaye müəssisələrinin sayı 56-dan 439-a çatmış, artım 7,8 dəfə olmuşdur. Yaradılan yeni sənaye müəssisələrində istehsal olunan məhsullar daxili bazarın idxaldan asılılığını xeyli azaltmış, eləcə də yeni ixracyönümlü, rəqabətədavamlı məhsulların ixrac olunmasına rəvac vermişdir.

Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində 1992-1995-ci illər idxalın həcminin artması, əsasən, gündəlik tələbat mallarının idxalı ilə xarakterizə olunur. Belə ki, əvvəlki iqtisadi əlaqələrin kəsilməsi, muxtar respublikanın blokada şəraitində olması və mövcud sənaye müəssisələrinin öz fəaliyyətlərini əsasən dayandırması bu dövrdə vacib yeyinti məhsullarına olan tələbatın idxal hesabına ödənilməsini labüd etmişdir. Eləcə də bu dövr xarici ticarətdə barter əməliyyatlarının üstünlük təşkil etməsilə, idxalın dəyər və həcminin artması ilə xarakterizə olunur. İdxalın artmasının bir səbəbi də xarici iş adamlarının ticarət əlaqələrinin qurulmasında maraqların artmasından, eləcə də elektrik enerjisinin idxalından ibarət olmuşdur.

1996-2000-ci illər Naxçıvan Muxtar Respublikasında xarici ticarətin formalaşdırılması dövrü kimi səciyyələnir. 2001-ci ildən başlayaraq muxtar respublikada xarici ticarət əlaqələrinin tənzimlənməsi sahəsində qanunvericiliyin yeniləşməsinə, gömrük orqanlarının işinin daha da təkmilləşdirilməsinə, bu orqan strukturlarının texniki təchizatının tam yeniləşməsinə, yerli sahibkarların maraqlarının nəzərə alınmasına, idxalın istehlak yönümlülüyünün istehsal xarakterli məhsullarla yeniləşməsinə başlanılmışdır. Bu dövrdə muxtar respublikanın iqtisadiyyatı ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələrilə paralel surətdə inkişaf etmişdir.

2001-2008-ci illərdə bölgəmizdə xarici ticarət dövriyyəsinin artan dinamikası davam etmişdir ki, bu da muxtar respublikanın sosial-iqtisadi inkişafı, dünyaya açılması, yerli istehsal məhsullarının xarici bazarlara yol açması, xarici iş adamlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın daha da inkişaf etməsi ilə səciyyələnir.

Statistik məlumatlara görə, müqayisə dövrünün əvvəlində muxtar respublikanın xarici ticarət dövriyyəsi 31,9 milyon ABŞ dolları həcmində olduğu halda, 8 il sonra bu göstərici 3,3 dəfə artaraq 103, 7 milyon ABŞ dollarına bərabər olmuşdur.

Müasir istehsal avadanlıqları ilə təchiz olunmaqla yaradılan rəqabətədavamlı, ixracyönümlü məhsul istehsal edən müəssisələrin formalaşması 2009-cu ildən başlayaraq ixracın idxalı üstələməsinə imkan vermiş və sonrakı illərdə bu proses artım dinamikası ilə davam etdirilmişdir. Belə ki, 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsi 220 milyon ABŞ dolları olduğu halda, 2013-cü ildə bu göstərici 512 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2,3 dəfə artım deməkdir. Bu dövrdə ixracın həcmi 3,6 dəfə artdığı halda, idxalın həcmi cəmi 1,7 faiz artmışdır.

Xarici ticarət dövriyyəsindəki artım dinamikası 2014-cü ildə davam etmiş və ötən il ərzində 517,4 milyon ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi aparılmışdır. Bu, bir il öncəki göstəricini 1,1 faiz üstələmişdir. İxracın həcmi 1,5 faiz artaraq 408,6 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 299,9 milyon ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. İxracın tərkibinin 313,5 milyon manatını sənaye məhsulları, 95,1 milyon manatını isə tələbatdan artıq istehsal edilmiş kənd təsərrüfatı məhsulları, xüsusilə meyvə-tərəvəz məhsulları təşkil etmişdir. İdxalın həcmi isə bir il öncəyə nisbətən azalmışdır. Bütövlükdə, son 20 il ərzində muxtar respublikada xarici ticarət dövriyyəsi 27,2 dəfə, o cümlədən ixracın həcmi iki yüz dəfədən çox artmışdır.

Son illərdə Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin coğrafiyası genişlənmiş və dövriyyəsində iştirak edən dövlətlərin sayı 40-ı ötmüşdür. Özəl sektor və fiziki şəxslərin xarici ticarət dövriyyəsindəki payı 2013-cü ilin sonuna 80,8 faiz təşkil etmişdir. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın ən inkişaf etmiş dövlətləri olan ABŞ, Fransa, Çin, Türkiyə, Rusiya, Hindistan, eləcə də Gürcüstan, Macarıstan, Bolqarıstan və digər ölkələrlə ticarət əlaqələri mövcuddur.

Muxtar respublikada xarici ticarətin inkişaf etdirilməsi və onun əhatə dairəsinin genişlənməsi daxili bazarın qorunması əsas götürülməklə həyata keçirilir və aparılan nəhəng quruculuq işləri idxalın həcminin müəyyən hədd daxilində artması ilə dövlət büdcəsinə nəzərdə tutulmuş gömrük ödənişlərinin çoxalması ilə müşahidə olunur. Belə ki, dövlət büdcəsinə yığılan gömrük rüsumu və vergilərin həcmi 1992-ci ildə cəmi 7 min 326 manat olduğu halda, bu göstərici 2013-cü ildə 8 milyon 355 min manat olmuş, artım yüz dəfələrlə ölçülmüşdür.

Bu gün muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının və qonşu dövlətlərlə ticari əlaqələrin genişlənməsinə yönəlmiş iqtisadi-sosial siyasətin nəticəsidir ki, artıq naxçıvanlı sahibkarlar xarici ticarət dövriyyəsini artırmaqla yanaşı, digər dövlətlərdə Naxçıvan markası altında iri ticarət şəbəkələrinin fəaliyyət göstərilməsinə nail olmuşlar.

*Xarici ticarət dövriyyəsindəki indiki dinamika daimi xarakter almışdır ki, bu da muxtar respublikada aparılan məqsədyönlü, düşünülmüş, regionun reallıqlarına əsaslanan sosial-iqtisadi siyasətin məntiqi nəticəsidir.*

**Sadıq RƏHİMOV**

*Bəzi sosioloqlar haqlı olaraq cəmiyyəti vahid orqanizmə bənzədirlər. Bu arqumentin çoxsaylı tərəfdarları insan orqanizmini misal göstərərək belə bir fikir irəli sürürlər ki, əgər insanın hər hansı bir yerində ağrı baş qaldırırsa, bu, onun ümumi vəziyyətinə mənfi mənada əsaslı təsir göstərir. Cəmiyyət də məhz belədir. Cəmiyyətin istənilən sahəsində çatışmazlıq olarsa, ümumi həyatın müsbət ritmi pozulur, yeni və gözlənilməz problemlər baş qaldırır. Sevindirici haldır ki, bu gün vaxtilə ciddi problem kimi gündəmdə olan bir sıra məsələlər artıq öz həllini tapıb. Məhz buna görədir ki, muxtar respublika cəmiyyətinin qabaqcıl insanları bugünkü fəaliyyətini artıq daha mütərəqqi ideyaların reallaşdırılması istiqamətində qurublar. Bu çərçivədə sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinə, reabilitasiyasına, cəmiyyətə inteqrasiyasına, təhsilinə diqqət daha da artırılıb.*

# Sağlamlıq imkanları məhdud uşaqların təhsilinə, cəmiyyətə inteqrasiyasına xüsusi diqqət göstərilir

## *Bu istiqamətdə qazanılmış nümunəvi təcrübə, görülən məqsədyönlü işlər də belə deməyə əsas verir*

Onu da qeyd edək ki, cəmiyyətin həssas təbəqəsi hesab olunan bu uşaqların problemləri, onların gələcəyi yalnız dünyanın inkişaf etmiş qabaqcıl ölkələrində diqqət mərkəzində saxlanılır. Çünki bu səviyyəyə çatmaq üçün istər dövlətlər, istərsə də cəmiyyətlər çox mühüm inkişaf mərhələlərini keçməlidirlər. Azərbaycan Respublikası bu mərhələləri uğurla başa vurub. Bu gün ölkəmizdə fiziki imkanları məhdud uşaqların gələcək taleyi təkcə həmin uşaqların valideynlərini deyil, həm də dövlətimizi, cəmiyyətimizi yaxından düşündürür. Naxçıvan Muxtar Respublikası bir sıra məsələlərdə olduğu kimi, bu məsələdə də ölkəmizdə liderliyini qorumaqdadır.

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası istiqamətində bu gün muxtar respublikada kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqların təhsil hüquqlarının müdafiəsində səmərəli mexanizmin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Proqramın əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqların digər həmyaşıdları ilə bərabər təhsil hüquqlarının təmin olunması, inklüziv və məsafədən, yəni distant təhsilə keçidə zəmin hazırlanması, onların sosial reabilitasiyasının gücləndirilməsi, cəmiyyətə inteqrasiyalarına nail olunması kimi bir sıra digər mühüm məsələlərin reallaşdırılmasıdır. Digər mühüm bir məqam ondan ibarətdir ki, dövlət proqramı 15-ə yaxın dövlət orqanının qarşısında konkret vəzifələr müəyyən edib. Yəni proqramda adıçəkilən həmin dövlət orqanlarının bu məsələyə dair fəaliyyət istiqamətləri müəyyənləşdirilib ki, bu da dövlət proqramının dəqiqliklə icrası və icrasına nəzarət üçün şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il iyunun 20-də imzaladığı Sərəncamın uğurlu icrası nəticəsində ötən il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üçün əsaslı zəmin yaradıb. Mərkəzin audio və elektron kitabxanasında 439 audio və 518 elektron kitab mövcuddur. Həmçinin burada brayl əlifbası ilə çap olunmuş dərslik, ədəbiyyat və jurnallar da vardır. Distant Tədris Mərkəzi istifadəyə verildiyi gün məlum oldu ki, audiokitabxanada muxtar respublika üzrə 482 görmə qabiliyyəti məhdud şəxs qeydiyyatdan keçirilib. Müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərini artırmaq məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin məşğələlərinə sağlamlıq imkanları məhdud 80 uşaq cəlb edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, ötən il muxtar respublika üzrə 18 sağlamlıq imkanı məhdud uşaq distant təhsilə cəlb olunub. Bu uşaqların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar quraşdırılıb. Mərkəzdə çalışan 4 müəllimə, eləcə də uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurs keçilib. Distant Tədris Mərkəzinə eyni vaxtda 50 istifadəçinin qoşulması mümkündür. Gələcəkdə serverin tutumunun 200 istifadəçiyədək artırılması nəzərdə tutulub ki, bu da daha çox şagirdin videobağlantı vasitəsilə məsafədən tədris prosesinə qoşulmasına imkan verəcəkdir.

Bu gün məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazasının yaradılması da gələcəkdə onların təhsilə cəlbinin diqqətdə saxlanılmasına imkan verəcəkdir. Keçən il 35 uşağın məktəbəqədər təhsil müəssisələrinə, 8 uşağın isə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə cəlb edilməsi bu istiqamətdə ardıcıl iş görüldüyündən xəbər verir. Hazırda belə müəssisələrdə sağlamlıq imkanları məhdud 61 uşaq qeydiyyatdadır. Bu müəssisələrdə təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə kurslar keçilib, onlar maarifləndirici materiallarla təmin olunublar.

Muxtar respublikada məktəb yaşına çatan sağlamlıq imkanları məhdud uşaqlar haqqında da məlumat bazası yaradılıb. 2014-2015-ci tədris ilində müvafiq kateqoriyalı 73 uşaq ümumtəhsil müəssisələrinin birinci siniflərinə, 2 uşaq gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəbə, 2 uşaq isə Bakı şəhərində fəaliyyət göstərən eşitmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi internat məktəbinə qəbul olunub.

Bu da əhəmiyyətli faktdır ki, sağlamlıq imkanları məhdud uşaqların ünsiyyətqurma bacarığının inkişafı və sosial reabilitasiyası məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı quraşdırılıb. 2014-2015-ci tədris ilində aztəminatlı sağlamlıq imkanları məhdud 246 uşağa məktəbli geyimi və ləvazimatı verilib.

2014-cü il ərzində bacarıq və maraqları nəzərə alınaraq sağlamlıq imkanları məhdud uşaqların musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə, idman qruplarına cəlb edilməsi istiqamətində bir sıra işlər görülüb. Hazırda sağlamlıq imkanları məhdud 15 uşaq musiqi məktəblərinə cəlb edilib. Bununla da, muxtar respublikanın musiqi məktəblərində bu kateqoriyadan olan uşaqların sayı 78-ə çatıb. Bundan başqa, müvafiq kateqoriyalı 68 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, onlardan 27 nəfər şahmat məktəblərinin dərnəklərinə, əlavə olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində məktəb təhsili olmayan görmə qabiliyyəti məhdud 4 nəfər brayl əlifbasının tədrisi məqsədilə təşkil edilmiş kurslara cəlb edilib.

Sağlamlıq imkanları məhdud uşaqlar arasında istedadlıların aşkara çıxarılması istiqamətində də tədbirlər həyata keçirilib. Belə ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müvafiq kateqoriyalı uşaqlar arasında intellektual və kinekt oyunları, "Oxu, qavra" adlı mütaliə yarışları, görmə qabiliyyəti olmayan şəxslər arasında brayl yazı və oxu müsabiqələri keçirilib, həmçinin eşitmə qabiliyyəti məhdud uşaqların iştirakı ilə müxtəlif səhnəciklər və intellektual oyunlar təşkil edilib.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Naxçıvanım mənim" mövzusunda sağlamlıq imkanları məhdud uşaqlar arasında rəsm, əl işləri, musiqi müsabiqələri, eyni zamanda şahmat, xalq uşaq oyunlarından ibarət əyləncəli idman yarışı keçirilib. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində isə görmə qabiliyyəti məhdud şəxslər üçün "Könül işığı" adlı aylıq brayl jurnalının nəşrinə başlanılıb. Bu, onların cəmiyyətə inteqrasiyasının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Sağlamlıq imkanları məhdud uşaqlar bayram və əlamətdar günlərdə də diqqətdən kənarda qalmırlar. Onlarla görüşlər təşkil edilir, sovqat verilir. Mütəmadi olaraq hər il yay tətili dövründə sağlamlıq imkanları məhdud uşaqların Ağbulaq İstirahət Mərkəzində istirahətlərinin təşkil olunması onların həm səhhətinə, həm də psixologiyasına müsbət təsir göstərir.

Naxçıvan Muxtar Respublikasında məhdud fiziki imkanlı uşaqların təhsilə cəlbi, cəmiyyətə inteqrasiyası ilə bağlı görülən işlərin həcmi bir məqaləyə sığmayacaq qədər çoxdur və biz burada yalnız bəzi məqamları oxucuların diqqətinə çatdırdıq.

Hazırda ümumtəhsil müəssisələrində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların sayının 760 nəfər olması bu sahəyə daha çox diqqət yetirilməsini zərurətə çevirir. Etiraf etməliyik ki, bu gün əgər biz həmin uşaqların təhsilinə diqqət yetirməsək, onların cəmiyyətə inteqrasiyasını təmin etməsək, onda gələcəkdə, necə deyərlər, 760-dək problemlə üz-üzə qalacağıq.

*Bizim üçün doğma, əziz olan bu uşaqları yetişdirməklə, onların istər peşə, istərsə də ali təhsil almasını təmin etməklə, müxtəlif faydalı işlərə cəlb etməklə isə biz cəmiyyətimizə həmin sayda faydalı insan qazandırmış olacağıq. Yəni gələcəyimizi qurmaq bu gün bizim öz əlimizdədir. Bu gün cəmiyyətimiz üçün görəcəyimiz işlər sabah bizim övladlarımızın rahat yaşayışını təmin edəcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Əgər xalqımızın, dövlətimizin gələcəyini düşünürüksə, bu gələcəyin təminatçısı olan uşaq və gənclərin sağlam mühitdə yetişməsi qayğısına qalmalı, onların təlim-tərbiyəsi ilə ciddi məşğul olmalıyıq".***

# "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara start verilib

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara martın 17-də start verildi. Bu çərçivədə Naxçıvan Muxtar Respublikasından sınaq imtahanlarında 450-700 arasında bal toplayan 160 IX-XI sinif şagirdi 20 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola düşdü.***



Bakıda 4 qrupa ayrılacaq məktəblilərimiz Lənkəran, Astara, Masallı, Quba, Qusar, Xaçmaz, Gəncə, Şəmkir, Göygöl, İsmayıllı, Şəki, Qəbələ istiqamətlərində səfər edəcək, həmin rayonlardakı tarixi-mədəni abidələrlə tanış olacaqlar.

Həmin gün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Azərbaycanın 20-dək rayonundan 160 məktəbli 20 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəldi.

Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan əzəmətli abidəsini ziyarət etdilər.

Sonra şagirdlər Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış oldular. Məlumat verildi ki, bu gün muzeyin fondunda ulu öndərin həyat və fəaliyyətini əks etdirən 4 min 500-dən çox eksponat toplanıb. Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Fəaliyyət göstərdiyi 16 il ərzində muzeyin 250 mindən çox ziyarətçisi olub.

Astara Rayon İcra Hakimiyyətinin nümayəndəsi Səlimə Nəsirova ulu öndərimizin və Prezident cənab İlham Əliyevin oyma üsulu ilə hazırlanmış portretini Heydər Əliyev Muzeyinə hədiyyə etdi.



Naxçıvan Dövlət Xalça Muzeyində isə şagirdlərə bildirildi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il fevralın 7-də imzaladığı Sərəncam xalçaçılıq sənətinin qorunmasına və inkişafına hərtərəfli şərait yaradıb. Həmçinin muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin olunub, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3246 eksponat var. Burada Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində müəyyən tədbirlər görülür.

Salyan Rayon Uşaq Yaradıcılıq Mərkəzinin müəllimi Əbülfət Bədəlov mərkəzdə toxunmuş xalçanı Salyan məktəbliləri adından muzeyə hədiyyə etdi.

Məktəblilər "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış oldular. Xan sarayında məlumat verildi ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsi ilə tanışlıq da məktəblilərdə xoş təəssürat yaratdı. Bildirildi ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bundan sonra məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə də qalan abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Türbə yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir.

Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələr şagirdlərin diqqətini cəlb etdi. Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr onların diqqətini çəkdi.

**Rauf ƏLİYEV**

# Mövsümlə bağlı oyunlar – yaz oyunları

*Oyun-tamaşalar etnosun yaşam tərzinin ifadəsi və mədəni hadisəsidir, xalqın mədəni düşüncəsini, estetik duyumunu formalaşdıran başlıca amildir. Xalq özünəxas yaşayış tərzini, dünyagörüşünü oyunlarla ifadə edir. Oyunların psixoloji xüsusiyyətləri onların məzmunundan çox ifa tərzində özünü daha aydın nümayiş etdirir.*






"Bostan-bostan", "Çördüçöp", yaxud "Çöpüdü" oyunlarında qalib və məğlub tərəflər, məcazi cəzalandırmalar oyuna əyləncə qatır. Oyunların çoxunda məqsəd toya və ya bayrama gələnləri güldürmək, şən əhval-ruhiyyə yaratmaqdan ibarətdir. Şahidlər qeyd edirlər ki, oyuna cəlb edilən müəyyən əşyalar da mərasimi maraqlı edirmiş. Oyunda bəzən köməkçi adam kənardan əşyanın qarşılığını tapıb gətirə bilir və dəstəsinə müvəffəqiyyət qazandırırdı. Belə oyunlar toya canlılıq gətirməklə uzun müddət hafizələrdən silinməyən xatirələr yaradırdı.

Həmçinin sırf mövsüm mərasimləri ilə bağlı keçirilən oyunlar mövcuddur ki, bunlar, bilavasitə, ritual ayin xarakteri daşımaqdadır.

Ordubadda bu gün də böyük istəklə keçirilən "Xanbəzəmə" mərasimi ildə bir dəfə – Novruz bayramında icra olunur. Burada məqsəd və sonluq bəlli süjet üzrə davam edir. Oyun qəhrəmanları və iştirakçılar xalqdır. Tam ciddiyyətlə və elliklə müşayiət olunan oyun özözünə ismarıc xarakterlidir. Toplumda ədalətin, haqqın, rifahın gözlənilməsi simvolik idarəçilik vasitəsilə göstərilir. Xalq özünə şah və ya başqa adı ilə xan seçir. O, ədalətlidir və hökmü hamı üçün keçərlidir. Ordubadda 3 gün davam edən oyunda həm ciddiyyət, həm də gülüş vardır. Xanın cəzasına kimsə etiraz etmir. Çünki o, adildir. Onun verdiyi hökmlər icra edilir. Bu oyunda xan çətinlikdə olana yardım edir, günahı olanı cəza anında bağışlayır.

Təqvimə nəzər salsaq, görərik ki, keçirilən oyunlar məhz yazın gəlişi üçündür. Yeni ilin gəlişi, yazın başlaması bolluğun rəmzi olduğundan insanlar müxtəlif vasitələrlə onu tərənnüm edirlər. Naxçıvanın dağ kəndlərindən birində unudulmuş, vaxtilə oynanılan bir oyun haqqında məlumat əldə etdik. "Bostan-bostan" adlanan oyunun təsviri belədir: kəndin yaşlı kişiləri toy mağarında ortaya girər, dövrə vurar, sonra başlarındakı börktipli papaqları ortaya atardılar. Müxtəlif jestlərlə əkini göstərər, sonra guya məhsulu yığardılar. Oyun gülüş və əyləncə ilə müşayiət olunurmuş.

Bu oyunun xarakteri və təsviri müxtəlif fikirlər doğurur. İlin yazyay fəslini göstərən oyun-tamaşa ağır toy havasına da bağlı olma ehtimalı daşıyır. Yazın gəlişi münasibətilə keçirilən oyunlar mərasimdaxili oyunlardır. "Kosa-kosa", "Kəvsəc", "Kosa-gəlin", "Saya", "Sayaçı", "Təkəm-təkəm" və sair oyunlar mövsümi səciyyə daşıyır.

"Novruz – yenigün" mövsüm mərasimini təbiətin oyanmasını əks etdirən əski mifoloji qat, yaxud genetik başlanğıc, təkamül prosesi, tarixi-tipoloji səciyyə ifadəsi olaraq göstərmək mümkündür. Mövsüm-mərasim oyunları "Kosa-kosa", "Təkəm", "Cangülüm" və sair mərasim göstəricisi kimi keçirilməkdədir. Şərur rayonundan topladığımız materiala görə, Novruz bayramı ərəfəsində "Günəşbanı", yaxud "Günəşbanu" adlı mərasim oyunu oynanılarmış. Bəzəkli taxta üzərinə bir oğlan uşağı oturarmuş. Digər böyüklər də onu qapı-qapı gəzdirər, mahnı oxuyub pay alarmışlar. Yaxud Günəşin çıxmağını həsrətlə gözləyən insanlar bərk cisimdən Günəşə bənzəyən gəlincik düzəldərdilər. Sarı boya ilə boyayıb insan surətində ağız, burun, saç qoyardılar. "Günəşbanu" adlandırılan gəlinciyi oynadar, evlərdən pay alarmışlar. Mərasimin ənənəvi söz-nəğməsində deyilir:

*Minnətdə koftalısan,*
*İşvəli, baftalısan.*
*Ay sarı, sarı gəlin,*
*Elimin varı gəlin,*
*Ay Günəş, Günəşbanu,*
*Günəşim, Günəşbanum.*

Yaz oyunlarındakı qapılardan payumma, payyığmada xarakter və məqsəd eynidir. İbrətamiz əyləncə xarakteri alan mövsüm mərasimi oyunları insanların ibtidai mifoloji görüşlərindən qaynaqlanır.

Azərbaycanda "Təkəm", "Təkəmçi" oyunları, bilavasitə, yazın gəlişinin göstəricisidir. Oyunla bağlı nəzmdəki sözlərdə bölgə adlarının ifadəsi oyunun coğrafi arealını müəyyənləşdirir:

*Təkəm oyun eylər,*
*Yığar yağın, düyüsün,*
*Özünün toyun eylər.*
*Təkəm getdi Mərəndə,*
*Tamaşadır gələndə.*
*"İskəmər"in gülləri*
*Açıb sizi görəndə.*

Yaz mərasimi oyunlarından "Kosa-kosa"nın Naxçıvan variantında deyilir:

*Kosam bir oyun eylər,*
*Quzunu qoyun eylər.*
*Yığar bayram xonçasın,*
*Hər yerdə düyün eylər.*

*Xanım dursun ayağa,*
*Kosaya pay versin, ağa.*
*Qurbanın olum, yaşıl çuxalı,*
*Culfalısan, yoxsa buralı?*

Azərbaycanda "Təkəm-təkəm" adı ilə bilinən oyun yazqabağı şənliklər zamanı açıq havada keçirilirdi. Bir-birindən 3-4 metr aralı yerdən cızılmış dairələr arasında taxta və ya dəmir gilgilə ilə oynanılan hərəkətli uşaq oyunudur. Oyun vaxtı hər dairədən 4-5 iştirakçı duraraq, ətrafda "təkəm, təkəm, ay təkəm" deyə, həlqə sürən bir iştirakçının gilgiləsini tutmaq, onu əvəz etmək üçün səy göstərirdilər. Təbiətlə mübarizə bir çox xalq oyunlarının əsası və sadə süjet xəttidir. Mərasim şənlikləri, sözlü şeirlər, səhnəciklər insanların təbiətə qarşı mübarizə əzmini, gücünü ifadə edir.

Şərur bölgəsində "Kosaçıxartma" oyunu, ümumilikdə, "Kosa-kosa" oyunu kimi bildiyimiz oyundur. Mövsüm-mərasim oyunu olan bu oyun "Dodu-dodu" oyunu ilə eynidir. Mahiyyət etibarilə burada da Günəş çağırılır. Çağırılır ki, torpaq oyansın, təbiət canlansın. İnsanlar hər bir halda təbiətdən bol məhsul almağı arzulayır. Kəngərli bölgəsində Novruz öncəsi "Kosaçıxartma"xalq oyunu keçirilir. Tamaşa-oyun gülməli xarakter daşıyır. Oyunda 4-5 nəfər iştirak edir. "Xapdan qapı döyülür, açırsan ki, Kosa. Yanındakılar istənilən evin qapısını döyüb Kosanı içəri ötürür. Bu Kosaya məzəli paltar geyindirillər. Başına gülməli miz papaq qoyullar, əyninə də başdan-ayağa qədər qırmızı paltar geyindirillər. Bu oyunun marağı ondadır ki, evin sahibi bilmir ki, qapısına bu gün Kosa gələcək. Çiyninə xurcun atıb qəfil qonaq gəlmiş Kosa gəldiyi qapıdan pay istəyir. Çırtmıq çalıb oynaya-oynaya deyir:

*Kosa ölməkdədi,*
*Gözləri çölməkdədi.*
*Kosanın payın verin,*
*Diyilliyo, diyilliyo, diyilliyo.*

Ev yiyəsi də gətirib Kosanın torbasını doldurur: undan, buğdadan, almadan torbaya qoyur. Kosa bir az da məzə çıxardıb, payını alıb, kəndi baş-ayaq edib gəzə-gəzə beləcə pay yığır".

Azərbaycan xalqının mövsüm-mərasim oyunları ritual davranışlar sərgiləyir. Oyunlardakı danışıq – sözlər, nəğmələr, obrazlar, hərəkətlər etnokulturoloji düşüncə, ənənə və təssəvvürləri müəyyənləşdirən mükəmməl sistemdir. Mövsüm-mərasim oyunlar silsiləsində "Kosa-kosa", "Keçəl" oyunları insanın təbiətlə münasibətinin göstəricisi, arxaik yaradıcılıq təcrübəsidir. "Kosa-kosa" oyununda yazla qışın mübarizəsi motivində səhnələşdirilən hadisələr əsas personajlar – Kosa, Keçəl və Keçi üzərində qurulmaqla həm də epik, dini, mifoloji görüşlərini nizamlı şəkildə bir araya gətirən folklor düşüncə və dünyagörüşünü əks etdirməkdədir. Buradakı səhnə-oyun hərəkətləri, personajların təsviri, oxunan nəğmələrin magik sözləri, işarələr, həmçinin obrazlaşmanın müxtəlif zoomorf qiyafələrdə, – qurd, tülkü və sair aparılması regional baxımdan fərqli səciyyəviliyə malikdir.

"Kosa-kosa", "Keçi", "Təkəmçi" oyunları xalq arasında sadə şəkildə oyun-əyləncə xarakteri alsa da, mifoloji yaddaş etibarilə elmi məzmun daşıyır.

**Məhsəti İSMAYIL,**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# "Naxçıvan" Universitetində Novruz şənliyi

"Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının ən qədim dövrlərdən bu günə gəlib çatan milli dəyərlər sistemində Novruz bayramının özünəməxsus yeri vardır. Bu bayram təbiətin oyanması, gecə ilə gündüzün bərabərləşməsi, həyatın təzələnməsi ilə əlamətdardır. Novruz həm də xeyir-bərəkət bayramıdır, yeni ildir, baharın ilk təqvim günüdür. Təbiətdəki bütün canlıların qışın qar və çovğunla müşayiət olunan soyuq, barsız-bəhrəsiz günlərindən sıyrılıb bolluq və firavanlıq mövsümünə qədəm qoyduğu bir dövrün başlanğıcıdır Novruz. O, bir günün, bir ayın yox, öz varlığında 4 fəsli birləşdirən bütöv bir ilin doğum günüdür". Bu fikirlər "Naxçıvan" Universitetində keçirilən Novruz şənliyində ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyevin çıxışında səsləndirilib.

Tədbirin aparıcıları bildiriblər ki, Novruz bayramı insanlara birlik, mehribanlıq kimi ülvi hislər aşılayır. Elə bu səbəbdəndir ki, Sovet hakimiyyəti illərində həyata keçirilən siyasət Azərbaycan xalqının digər milli-mənəvi dəyərləri kimi, Novruzu da xalqın şüurundan silə bilmədi. Sovet ideologiyasının milli özünüdərkə, xalqların tarixdən gələn mənəvi irsinə qənim kəsilməsi ölkəmizdə özünü açıq şəkildə büruzə verirdi. Lakin bu məqsəd baş tutmadı. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişaf etdirilməsində tarixi şəxsiyyətlərin üzərlərinə mühüm vəzifələr düşür. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hələ Sovet hakimiyyəti illərindəki fəaliyyəti diqqəti xüsusilə cəlb edir. Çünki məhz ulu öndərin hakimiyyətdə olduğu dövrlərdə xalqımız öz milli dəyərlərinə daha çox sahib çıxıb, mənəvi irsin zənginliklərinə dərindən yiyələnib.

Tədbirin bədii hissəsində tələbələrin ifasında səsləndirilən Novruzla bağlı şeirlər, rəngarəng musiqi nömrələri, Kosa və Keçəlin çıxışı tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

# Yüngül atletikanın faydaları

***İdmanın bütün növləri insana sərbəstlik, özünəinam, ən əsası isə atletik bədən bəxş edir. İnsan bədəni formalaşmağa başladığı bir gündən onun əzələləri müəyyən forma alır ki, bunu düzgün inkişaf etdirmək hər bir kəsin öz əlindədir. Atletik bədənə sahib olmaq idmana olan vurğunluqdan irəli gəlir. Məhz bu amil əsas götürülərək yüngül atletika bütün idman növlərinin yaradıcısı kimi qəbul edilir.***

***Nələrə əməl etmək vacibdir?***

Yüngül atletika ən qədim idman növlərindən biri hesab edilir. Bu növ özündə qaçış idman növlərini, idman yerişini, tullanmalar və atmaları, çoxnövçülük və kross yarışlarını birləşdirir. Yüngül atletikanın yaranma tarixi qədim olimpiya oyunlarının yaranma tarixi ilə eyni dövrə təsadüf edir. Maraqlısı odur ki, həmin dövrlərdə keçirilən olimpiya oyunları yalnız idman yarışları deyil, həm də idmanın sənət və mədəniyyətlə birləşdiyi böyük mərasim idi. Qədim tarixə malik olmasına baxmayaraq, müasir yüngül atletika oyunlarının geniş yayılması XIX əsrin son illərinə təsadüf edir.

Ümumiyyətlə, atletika özündə bir çox idman növünü ehtiva edir: 100, 200, 400, 800, 1500, 3000 metrlik məsafəyə qaçış, 110 və 400 metrlik məsafəyə sədlərlə qaçış, 2000 metrlik uzaqlığa maneələrlə qaçış, 10 min metrlik idman yerişi, hündürlüyə tullanma, şüvüllə tullanma, uzunluğa tullanma, üç təkanla tullanma, lövhəatma, çəkicatma, nizəatma.

Naxçıvan Muxtar Respublikasında yüngül atletikanın geniş yayılmış növü qaçışdır ki, hazırda Yüngül Atletika Federasiyasının təşkil etdiyi yarışların əksəriyyəti məhz 200, 400, 800 və 1500 metrlik məsafəyə qaçış və ya kross yarışlarından ibarətdir. Yüngül atletika digər idman növlərindən fərqli olaraq, insanın özünü bu sahədə sübut etməsi üçün zaman tələb edir. Yəni hər qaçan, qaçmağı bacaran kəs atlet ola bilməz. Bu idman növünə başlamazdan öncə insan mütləq şəkildə həkim nəzarətindən keçməlidir. Yüngül atletikanı seçənlərin ən böyük səhvi isə bu növə sürətli başlanğıc etmələridir. Məşqlərə tədricən, yavaş başlayıb fiziki gücü müəyyən bir həddə çatdırmaq lazımdır. Sürətli fiziki gərginlik insanı sağlamlaşdırmır, əksinə, orqanizmi zəiflədir. Sağlam olmaq üçün asta qaçmaq məsləhətdir. Sürətli qaçmaq və ya beton, asfalt yerdə qaçmaq isə oynaqlar üçün təhlükəlidir.

Yüngül atletika, hər şeydən əvvəl, ürək üçün fiziki gərginlikdir. Bu idman sahəsinin qaçış növündə insan orqanizmində silkələnmə baş verir ki, bu da təngnəfəslikdən, zökəmdən qorunmanın ən yaxşı vasitəsidir. Qaçış bütün əzələ qruplarını formaya salır, insan bədənində olan stresi aradan qaldırmağa kömək edir. Bu növlə məşğul olarkən kor-koranə qaçışdan uzaq olmaq vacibdir. Ən azından qaçmazdan 5-8 dəqiqə öncə oynaqlar qızışdırılmalı, sadə gimnastik hərəkətlər edilməlidir. Ürəyin böyük təzyiq altına düşməməsi üçün qaçışdan sonra dartınma hərəkətləri edilməlidir.

Yarışlar və ya sərbəst qaçışlar zamanı çalışmaq lazımdır ki, əzələlər boşalmış vəziyyətdə saxlanılsın və hər hansı bir tənəffüs ritmi gözlənilməsin. Çünki qaçış zamanı ritmin özü gəlməlidir və bu ritmi pozan zaman qaçışın heç bir faydası olmaz. Yüngül atletika ilə məşğul olanlar qidalanmaya da xüsusilə diqqət yetirməlidirlər. Məsələn, uzun məsafəli kross yarışlarından ən gec bir saat öncə yemək yeyilməlidir və təbii ki, yeyilən yemək yüngül olmalıdır. Bu, meyvə, tərəvəz və ya vitaminli maye ola bilər.

Yüngül atletikanı digər idman növlərindən fərqləndirən daha bir cəhət geyimlərdir. Bu sahə ilə peşəkar və ya həvəskar şəkildə məşğul olanlar mütləq şəkildə geyimlərinə fikir verməlidirlər. Odur ki, bütün yüngül atletika yarışlarında idmançılar tərkibi pambıq olan geyimlərdə arenalara çıxırlar.

Bəs yüngül atletikanın uşaqlar üçün xeyri nədir? Yüngül atletika, ilk növbədə, uşaqlarda ahəngdar fiziki və psixoloji inkişafa imkan yaradır, incə ayaqların, estetik bədənin formalaşmasına səbəb olur, əzələləri bərkidir. Ümumiyyətlə, atletikanın növləri psixi, emosional və fiziki narahatlığın aradan qaldırılmasında müstəsna rol oynayır.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 233